**UOT 75**
**https://doi.org/10.59849/2311-8482.2025.2.244**

**ŞƏHANƏ ƏLİYEVA***

# AZƏRBAYCAN MİLLİ MUSİQİSİNDƏ FORTEPİANO JANRININ İLK NÜMUNƏLƏRİ

*XX əsrin ilk onillikləri Azərbaycanda fortepiano ifaçılıq sənətinin inkişafında yeni istiqamətlərin formalaşdığı dövr idi. Bu illərdə fortepiano nusiqisi janrında əsər yazmaq zəruriyyəti bəstəkarların qarşısında yaradıcılıq problemi kimi qoyulmuşdur. Ü.Hacıbəylinin göstərdiyi yoldan əmin addımlarla irəliləyən ilk bəstəkarlıq məktəbinin nümayəndələri qısa zamanda fortepiano musiqisi janrında yazdıqları rəngarəng əsərlərlə bu yaradıcılıq probleminin həllinə nail olmuşlar. Təqdim olunan məqalədə bu prosesə xüsusi diqqət verilərək, bəstəkarlarımızın yaradıcılıq nailiyyətlərinin əhəmiyyətindən bəhs edilir.*

*Fortepiano musiqisi janrında əsərlər külliyyatının formalaşdırılması Ü.Hacıbəylini düşündürən mühüm problemlərdən olmuşdur ki, dahi bəstəkar xalq musiqisi nümunələrinin fortepiano işləmələrini hazırlamaqla bu istiqamətdən çıxış edən ilk bəstəkar olmuşdur. A.Zeynallı isə milli musiqi mədəniyyətində bu alət üçün ilk əsər yazan bəstəkar ünvanı qazanmışdır. Məqalədə həmin dövrdə özünməxsus yaradıcılıq prosesi kimi qymətləndirilən A.Zeynallının fortepiano musiqisi sahəsində axtarışları və bu axtarışların nəticələri janrın inkişaf perspektivliyini müəyyən edən mühüm nailiyyətlər kimi vurğulanır. Onun fortepiano musiqisi janrında yazmış olduğu əsərlərdə klassik forma, janr xüsusiyyətləri ilə milli musiqi ünsürlərinin mükəmməl vəhdətindən bəhs edilir. Əsərlərin proqram başlıqlarının ideya məzmunun açılmasında əhəmiyyətinə diqqət çəkilir.*

*A.Zeynallının fortepiano musiqisi janrında əldə etdiyi nailiyyətlər digər bəstəkarlar üçün də stimul olmuşdur. Q.Qarayev, Ə.Cavid, F.Əmirov, E.Nəzirova fortepiano üçün yazdıqları ilk əsərlərlə janr rəngarəngliyini təmin etmişlər. Məqaləda bu bəstəkarların həmin janrda yazmış olduğu ilk əsərlərdən bəhs edilir, onların janr, forma xüsusiyyətlərinə diqqət çəkilir. Bu əsərlərin milli ifaçılıq sənəti ilə yanaşı fortepiano musiqisinin bir janr kimi şaxələnərək, bu sahədə inkişaf imkanlarının genişlənmə perspektivliyindən danışılır.*

***Açar sözlər:*** *milli, bəstəkar, janr, forma, fortepiano, musiqi*

## Giriş

Avropa musiqi mədəniyyətində fortepiano geniş ifaçılıq imkanları ilə konsert estradasının ən unikal alətidir. O, klavişli alətlərə yeni mexanizm əlavə etmək istəyən italyan usta Kristofori Bartolemeo tərəfindən 1709-cu ildə yaradılmışdır. 1726-cı ildə alman orqan ustası İohann Qotfrid Zilberman K.Bartolemeonun fortepiano mexanizmini təkmilləşdirdikdən sonra alətdən ifaçılıq təcrübəsində geniş istifadə etməyə başlayırlar. Fortepianonun qısa zamanda məşhurlaşmağı onun üçün zəngin əsərlər külliyyatı yaradılması zərurətini ortaya qoyurdu. Bir çox mənada İ.S.Baxın klavir əsərləri alət üçün ilk sənət nümunələri hesab edilir. Lakin fortepiano üçün əsl mənada ilk əsərlərin müəllifi 1685-1743-cü illərdə yaşamış italyan bəstəkarı Lodoviko Custinidir. Onun 1732-ci ildə nəşr etdirdiyi 12 fortepiano sonatası alət üçün peşəkar səviyyədə yazılmış ilk əsərlərdir. Fortepiano musiqisi klassisizim dövründə dahi L.V.Bethovenin yaradıcılığında öz təsdiqini tapır. Bəstəkar yazdığı 32 fortepiano sonatasında alətin virtioz ifa imkanlarını tam mənası ilə açır. Daha sonra isə romantik bəstəkarların, xüsusilə F.Şopen, F.Listin yaradıcılığında fortepiano mükəmməl səslənmə xüsusiyyətləri ilə seçilən əsərlər külliyatı ilə konsert estradasının ən çox sevilən alətinə çevrilir.

## Əsas təhlil

Azərbaycan musiqi mədəniyyəti tarixində fortepianoda ifaçılıq sənətinin inkişafı ilə əlaqədar zəngin ədəbiyyat yaradılması zərurəti bəstəkarların yaradıcılığında fortepiano musiqisinin əhəmiyyətli yer almağı ilə nəticələnir. Hələ XX əsrin ilk onilliklərində Ü.Hacıbəyli bu istiqamətdən çıxış edən ilk bəstəkar kimi bir neçə xalq musiqisi nümunələrini fortepiano üçün işləyir. 2-5 sətrdən ibarət olan bu işləmələri bəstəkar 1925-1945-ci illər arasında hazırlamışdır. “Uşaq və buz”, “Şur”, “Şahnaz”, “Laylay” proqram başlıqları daşıyan bu əsərlərdə proqramlı fortepiano pyeslərinin ideya

mıəznunu da öz təsdiqini tapır. Bu vasitə ilə bəstəkar Avropa klassik musiqisinin forma, janr xüsusiyyətlərini fortepiano musiqisi janrında sınayır.

Məlumdur ki, A.Zeynallı fortepiano musiqisi janrında ilk əsərlərin müəllifi kimi tanınır. İlk dəfə peşəkar bəstəkarlıq təhsili almış A.Zeynallı miniatür əsərlərində fortepiano alətinin ifaçılıq imkanlarını özünəməxsus şəkildə açır. Ən əsası isə o milli lad- məqam ünsürlərinin bu alət üçün yazılmış əsərlərdə istifadə imkanlarını da diqqətdən keçirir.

Milli muğamların improvizasiya xüsusiyyətli A.Zeynallının bədii yaradıcılıqda muğam elementlərindən istifadə imkanlarını da genişləndirir və bəstəkar "Çahargah" pyesində ilk dəfə milli muğam elementləri ilə orijinal fakturaya malik əsər yazır. A.Zeynallı yaradıcılığının romantik təfkkürü bu əsərdə parlaq ifadəliyi ilə diqqət cəlb edir. Pyesdə musiqinin ifadə vasitələrindən mükəmməl şəkildə faydalanan A.Zeynallı forma, janr xüsusiyyətlərində Avropa musiqisinin özünəməxsus cəhətlərindən faydalanır. Onun "Çahargah" pyesi "formaca dünyəvi, məzmunca milli" fortepiano əsərlərinin ilk nümunəsi olur. A.Zeynallının "Çahargah" pyesində muğam prinsipinin mükəmməl şəkildə təzahürü haqqında S.Qasımova yazır: "Muğamda olduğu kimi, bir-birini əvəz edən epizodlar da Çahargahın kadensiyasından alınmış vahid melodik intonasiya ilə bağlıdır. Bununla belə "Çahargah" bəstəkarın Azərbaycan musiqisində ilk dəfə olaraq fortepiano musiqisinə xas bir çox tipik texniki vasitələrdən istfadə olunmuş fortepiano pyesidir".[4. s112]

A.Zeynallı daim yaradıcılıq axtarışları ilə məşğul olaraq, bu fəaliyyətinin nəticələrini fortepiano musiqisi janrında da ümumiləşdirir. O, "Uşaq süitası" ilə fortepiano musiqisi janrında ilk milli silsiləvi əsərlərin əsasını qoyur. Bu məcmuədə bəstəkar P.Çaykovski, R.Şumanın yaradıcılığında ifadə olunan klassik ənənələrin davamçısı kimi çıxış edir. 6 miniatür pyesi özündə birləşdirən məcmuə milli musiqidə bu səpkili əsərlərin ilki olur. Bütün pyeslərdə milli məqamlardan zəmin kimi istifadə olunması isə bəstəkar üslubunun orijinallığını, onun ifadə etmək istədiyi yaradıcılıq təxəyyülünün mahiyyətini izah edir.

Məlum olduğu kimi A.Zeynallının "Uşaq süitası"ndan pyeslər proqram başlıqları daşıyır. Hər bir proqram başlığı aid olduğu pyesdə ifadə olunan ideya məzmununun açılamsında mühüm funksiya icra edir. Bu, bəstəkar yaradıcılığında proqramlılıq prinsipinin formalaşmasında ilk ən əhəmiyyətli nailiyyət kimi qiymətləndirilir. Məcmuədə əsasən "Şur" məqamının intonasiyalarına üstünlük verən A.Zeynallı ilk "Kuklaların yürüşü", dördüncü "Oyun" və sayca beşinci olan "Qoyunlar" pyesində bu məqamı unikal formada işləyir. İlk pyesdə aşıq musiqisinin intonasiyaları da öz inikasını tapır. Pyesin kvarta-kvinta əlaqəsi bunu ifadə edir. Belə bir yaradıcı cəhət aşıq musiqisində daha çox təcəssüm olunan "Şur" məqamının forma xüsusiyyətləri ilə əlaqədar ortaya çıxır. Pyesdə ostinat ritmin fonunda kvarta-kvinta əlaqəsi yürüş xarakteri yaradaraq, obraz aləminin daha parlaq açılmasını təmin edir. İkinci pyes "Uşaq və buz" melodik intonasiyaları ilə proqram başlığını dolğunluqla ifadə edir. Do mayəli "Rast"a əsaslanan pyesdə "do-sol" əlaqəsi yenə xalq musiqisi ünsürlərinin təcəssümünü yetişdirir. Melodiya inkişaf etdikcə diapazonu böyüyür. Bütün inkişafda hərəkət "Do" mayəsinin istinad funksiyasına xələl gətirmir, mayə sonuna qədər öz əhəmiyyətini qoruyur. Üçüncü pyes "Rəqs" xalq rəqslərinin rəngarəng əhval-ruhiyyəsini canlandırır. Əsərin 12/16 metrik ölçüsü də bunu ifadə edir. O, "Bayatı-Şiraz məqamı üzərində qurulub. Pyes üçhissəli formada yazılıb. Formanın kənar hissələri orta hissəyə təzadlıq təşkil edir. Bu, lad-məqam əlaqəsində aydın hiss olunur. Orta bölmədə "Rast"a müraciət olunub. Dördüncü pyes "Oyun"da yenidən "Şur" məqamına istinad edən bəstəkar bir-biri ilə ziddiyyət təşkil edən iki mövzu üzərində maraqlı kompozisiya qurur. Hər iki mövzuda məqamın intonasiyaları qabardılır. Beşinci "Qoyunlar" pyesinin musiqi materialı bəstəkar tərəfindən milli fuqa janrının ilk nümunələrindən olan III fuqada da istifadə olunmuşdur. Burada xalq musiqisi intonasiyaları ecazkar gözəlliyi ilə işlənilir. İkihissəli kompozisiya xüsusiyyəti daşıyan pyesdə "mi" tonika oaraq müəyyən edilib, kvinta əlaqəsi isə bir daha xalq musiqisi elementi kimi

diqqət cəlb edir. Sonuncu "Deyişmə" pyesində "Bayatı-Şiraz" məqamının intonasiyaları skertsovari inkişaf formalaşdırır. Beləliklə, məcmuədə silsiləvi əsərlərdə milli muğam, xalq musiqisi intonasiyalarından istifadə imkanlarını təsdiq edən A.Zeynallı yaradıcılıq təxəyyülünün hüdudsuzluğu ilə xalq musiqisinin klasik formalarda tətbiqi probleminə aydınlıq gətirir.

A.Zeynallı dahi alman bəstəkar İ.S.Baxın yaradıcılığında mükəmməl şəkildə təsdiqini tapmış fuqa janrında yazdığı "9 fuqa"da milli musiqi ünsürlərinin monodik strukturunu polifonik təfəkkürlə qovuşdurur. Bəstəkarın 9 fuqasından forma, janr xüsusiyyətlərinə görə mükəmməl olan yalnız iki pyes nəşr olunmuşdur. Silsilədə əsasən "Rast" və "Bayatı-Şiraz" məqamlarına istinad edilmişdir. Pyeslərdə bəstəkarın fuqa janrının forma qanunauyğunluqlarına ciddi əməl etməsi diqqət çəkən ilk məqamlardandır. İlk fuqa "Rast" üzərində qurulub, 2/4 ölçü ilə təqdim olunur. Mövzu ilk dəfə re mayəli "Rast"da verilir. Onun ayrı-ayrı səslərdən keçən variantları isə işlənmə bölməsində fa diyez, si, mi mayələrinə keçidi ilə yadda qalır. İşlənmə bölməsində qısa şəkildə ifadə olunan mövzu bütün pyes boyu parlaqlığı ilə səslənir. Onun ilk keçidindən sonra kiçik intermediya bölməsi işlənmədə də eyni sturkturu yetişdirir. İşlənmə bölməsi kiçik intermediya vasitəsilə repriza ilə birləşir. İkinci fuqa xalq rəqslərinin intonasiyaları ilə nəfəs alır. Pyesin 6/8 metrik ölçüsü də bunu təsdiq edir. Lya mayəli "Bayatı-Şiraz" əsasında işlənən mövzuya cavab re mayəli "Bayatı-Şiraz"da verilir. Beləliklə, tonal münasibətdə kvarta əlaqəsi nümayiş olunur. Pyesdə bəstəkar polifoniyanın imitasiyalı növündən faydalanır. III fuqa "Qoyunlar" pyesinin mövzusuna əsaslanan və bəstəkarın nəşr olunan iki fuqasından biridir. Lakin bu pyes sıralanma baxımından nəşr olunan fuqaların ilkidir. Buna görə də nəşr olunan fuqa sıralanmasında o I olaraq təqdim edilir. Əsəri bu mənadə dəyərləndirən R.Rzaquliyeva qeyd edir. "Birinci fuqa aramlı, həzin xalq mövzusu olan "Qoyunlar" (bəstəkarın çox sevdiyi mahnı, o, həmin mahnıdan həmçinin "Uşaq süitası"nda və kamera ansamblı üçün əsərlərində həmişə eyni ad altında istifadə etmişdir) əsasında yazılmışdır. Bu, Azərbaycan xalq melodiyasının polifonik formada istıfadəsinin ilk nümunəsidir".[1. s329]

III fuqa da "Bayatı-Şiraz" məqamı üzərində qurulub. Ekspozisiyada mövzu mi mayəli "Bayatı-Şiraz"da keçir, cavab isə si mayəsini yetişdirərək, klassik fuqalar üçün xarakterik cəhətləri nümayiş etdirir. İlk sırada yerləşən hər üç fuqa üçsəslidir. Onun izləyən IV və V, VI, VII fuqalar da lad-məqam baxımından eyni quruluş xüsusiyyətlərinə malikdir. Lakin IV fuqada do-sol mayəli, V fuqada si-fa diyez, VI fuqada lya-mi, VII fuqada isə sol-re mayəli "Bayatı-Şiraz" məqamı bütün inkişafı təmin edir. Lento tempi ilə verilən V fuqa özünəməxsus xarakterdədir. IV, VI fuqalar ikisəsli, V, VII fuqalar isə isə dördsəslidir. 4/4 metrik ölçü ilə təqdim olunan VII fuqanın işlənmə bölməsində ekspozisiyanın tonallıqları işlənilir. VIII fuqa daha çox səs komplekslərini birləşdirib, beşsəsli olaraq təqdim edilir. Onun mövzusu do diyez mayəli "Bayatı-Şiraz" məqamı üzərində qurulub. İşlənmə bölməsində isə fa diyez mayəli eyni məqamın intonasiyaları inkişafa ziddiyyət qazandırır. Sonuncu IX fuqa yenə üçsəslidir. Burada mövzu və cavab kvinta əlaqəsini bir daha təsdiq edir. Onlar sol və re mayəli "Bayatı-Şiraz"a əsaslanır. Pyesin repriza bölməsinin inkişafında mövzuların keçidində strettaların əhəmiyyətini vurğulamaq lazımdır. Beləliklə, A.Zeynallı fuqalarında klassik janrın forma xüsusiyyətlərini aydın və parlaq şəkildə ifadə etməyə nail olub. Pyeslər eyni zamanda janrın milli musiqidə ilk nümunələri kimi əhəmiyyətlidir.

Ü.Hacıbəylidən sonra milli musiqidə ikinci bəstəkarlıq məktəbinin formalaşdıran Q.Qarayevin XX əsrin 30-cu illərində yazdığı "Matəm marşı" və "Çar kəndinin heykəli" pyesləri, "Üçsəsli fuqa" və fortepiano ilə orkestr üçün nəzərdə tutulan "Sevinc poeması" Azərbaycanda fortepiano musiqisi janrında yazılan ilk əsərlərdəndir. Dövrün sosialist idealogiyasına uyğun olaraq Q.Qarayev "Matəm marşı"nı S.Orcanikidzenin ölümü, "Sevinc poeması"nı Sosialist İnqilabının 20-illiyi ilə əlaqədar yazsa da, hər iki əsər bəstəkar fikrinin ifadə olunmasında əhəmiyyətlidir. "Çar kəndinin heykəli"

pyesi isə rus şairi A.S.Puşkinin ölümünün 100 illiyinə həsr edilmişdir. Q.Qarayevin fortepiano musiqisində yaradıcılıq ülsubunun nailiyyətləri öz başlanğıcını bu əsərlərdən götürür.

Q.Qarayevin "Çar kəndinin heykəli" forma xüsusiyyətlərinin mükəmməl şəkildə təqdimində əhəmiyyətli əsərlərdəndir. Pyes güclü təsvirçilik elementlərinə malik olub, romantizim, həm də impresionizmə xas cəhətləri təcəssüm etdirir. Bu haqda T.Seyidov qeyd edir: "Çar kəndinin heykəli" rəngarəng və cəzbedici fortepiano fakturasına görə fərqlənir. Onda yaradıcı şəkildə əks olunan romantik pianizmin zəngin irsi, eyni zamanda impresionist bəstəkarlar, xüsusilə K.Debüssinin fortepiano yazısını təsviri üslubu üstünlük təşkil edir". [5. s15] Pyesin musiqisində heykəli əhatə edən fəvvarədən səpələnən su damlaları parlaqlığı ilə hiss olunur. Bu, fakturada zəngin elementlərin ortaya çıxmasını yetişdirir. Sol əlin müşayiət partiyası dolğun akkordlarla inkişafa xüsusi çalar qatır. İlk xanələrdən metrik ölçü dəyişkənliyə məruz qalır. Dinamika cəhətdən *sf* ilə verilən başlanğıc qısa zamanda *ff*-ə yüksəlir. Əsərin müşayiət partiyası ifaçıdan bacarıqlı vərdişlər tələb edir. Sonra həm dinamika, həm də temp zəifləyir. Bu kimi ziddiyyət xarakterdə də fərqli emosionallıqları ortaya çıxarır. Passajlar, sağ və sol əl partiyalarının mükəməl uyğynluğu bəstəkar üslubunun orijinallığından xəbər verir. Əsərdə Q.Qarayevin harmonik musiqi dilinin özünəməxsusluğu dinləyicini valeh edir. Passajları təşkil edən septakkordlar harmoniyada yaradıcılıq axtarışlarının izlərini daşıyır.

Q.Qarayev "Sevinc poeması" əsərində yenilikçi ideyalarının təməlini atır. Əsərdə fortepiano ilə orkestr səslənməsində maraqlı dramaturgiya qurmağa çalışan bəstəkar milli konsert janrında formalaşacaq ənənələrin təməlini hazırlayır. Bu istiqamətdən çıxış edən Q.Qarayev 1940-cı ildə fortepiano konsertinin I hissəsini yazır.

A.Zeynallının fuqa janrında əldə etdiyi nailiyyətləri davam etdirməyə çalışan Q.Qarayev 1939-cu ildə yazdığı "Üçsəsli fuqa"sında səsləri tersiya, oktava çərçivəsində ikiləşdirərək polifonik çoxsəsliliyin imkanlarını milli musiqi təfəkkürü ilə qovuşdurur. Burada tonika-dominanta əlaqəsini aşağı istiqamətdə ifadə edən Q.Qarayev bəstəkarlıq üslubunda sərbəst improvizasiyalılığa meyl edir. Əsərin folklor başlanğıcla bağlılığı onun unikallığını müəyyən edir.

1941-ci ildə F.Əmirov tərəfindən yazılan "Variasiyalar" milli fortepiano musiqisində XX əsrin 30-40-cı illərində janr rəngarəngliyini formalaşdıran növbəti əsər olur. Bunun ardından Ə.Cavid 1942-ci ilin əvvəllərində həmin janrda yazdığı "9 variasiya"nı müəllimi Ü.Hacıbəyliyə ithaf edir. Variasiyaların Ü.Hacıbəyli tərəfindən yüksək qiymətləndirildiyini qeyd edən R.Şəfəq deyir: "Üzeyir bəy bu əsərdəki yeniliyi, orijinallığı, milli Azərbaycan musiqisinin zəngin xəzinəsi olan muğamlardan bacarıqla istifadə edilməsini yüksək qiymətləndirirdi." [3. s3]

1943-cü ildə milli fortepiano musiqisində yeni janr nümunəsi olan Q.Qarayevin sonatinası yaranır. Klassik sonata janrının forma xüsusiyyətlərinin həyata keçirildiyi əsərin ilk hissəsi sonata-allegro formasında olub, hər iki partiyanın tokkatavari xarakteri ilə yadda qalır. Bu, hissənin motorluluğunu təmin edib, ekspressiya ilə zənginləşdirir. Köməkçi partiya təkrar quruluşlu period formasında olan əsas mövzunun davamını gətirir. I hissənin sonata-allegrosunda repriza bölməsi ixtisara salınıb. II hissə Moderato assai xalq mahnıları intonasiyaları daşıyır. Burada muğam quruluşuna uyğun olaraq güclü təqdilərdə istifadə olunan trel, forşlaq, mordent melizmləri hissənin milli ruhunu daha da qabardır. Üçhissəli formada olan II hissədə formanın orta bölməsi kontrapunkt, imitasiya imkanları ilə inkişaf etdirilir ki, nəticədə reprizada simfonik səslənməyə xas xüsusiyyətlər nmeydana gəlir. Rondo formasında olan final isə ikisəli faktura, canlı ritmi, kəskin harmonik dövriyyələri ilə ehtiraslı, inadkar obraz yaradan skertsodur.

1944-ci ildə Zaqafqaziya Respublikalarının Mədəniyyət və İncənəti Dekadasında gənc ifaçı-bəstəkar, müəlllifin özü tərəfindən səslənən E.Nəzirovanın prelüdü milli fortepiano musiqisində janrın ilk nümunələrindən biri olur. Onun prelüd silsiləsinə 12 pyes daxil edilir. Hər bir pyes özünəməxsus xarakteri, xalq musiqisi ilə bağlılığı, forma, janr xüsusiyyətlərinin orijinal şəkildə

işlənməsi baxımından əhəmiyyətlidir. Bu haqda R.Abdullayeva qeyd edir: "E.Nəzirovanın prelüdləri-düzümlü, bitkin formalı və lirik məzmunlu musiqi pyesləridir. Onlar çox mütəhərrik şəkildə özündə Avropa və milli incəsənət ənənələrini birləşdirir. Prelüdlərdə cəldlik poetik xəyalpərvərliklə, lirik başlanğıcın seyri ilə çulğalaşır, emosional çalarların rəngarəngliyi valeh edir". [2. c144] Maraqlıdır ki, bəstəkar silsilədə bir janr daxilində rəngarəng xüsusiyyətlər formalaşdırır. Onun prleüdləri sankı başqa-başqa janrda yazılmış pyeslərdir. Belə ki, bu prelüdlərdə tokkata, etüd janrlarının xarakterik çizgiləri hiss olunur. Bəstəkar bu vasitə ilə təzadlı, ziddiyyətlə dolu emosionallığı ortaya qoyur. Digər bəstəkarların yaradıcılıq nailiyyətlərinin davamını gətirən E.Nəzirova eyni zamanda etüd janrının banisi kimi çıxış edir. Onun ifaçıların virtioz imkanlarının inkişafını hədəfləyən dörd etüdündə fərdi ifaçılıq üslubunun nailiyyətləri ümumiləşdirilib.

**Nəticə**

Beləliklə, XX əsrin 30-40-cı illərində fortepianoda ifaçılıq sənətinin yüksək səviyyədə inkişafının zəruriyiliyini nəzərə alan Azərbaycan bəstəkarları fortepiano musiqisi janrında yazdıqları ilk əsərlərdə klassik janr, forma xüsusiyyətlərini işləmiş, xalq musiqisi, muğam intonasiyalarını klassik ənənələrlə qovuşduraraq fortepiano musiqisində milli elementlərin üstünlük təşkil etdiyi orijinal musiqili təfsirlər yaratmışlar. Onların yaradıcılıq axtarışları nəticəsində fortepiano musiqisi şaxələnmiş, bir janrın daxilində digər janrlara xas xüsusiyyətlərin nümayiş olunması isə milli ifaçılıq sənəti və bəstəkar yaradıcılığında fortepiano musiqisinin inkişaf perspektivliyini genişləndirmişdir.

## ƏDƏBİYYAT

**Azərbaycan dilində**

1.Azərbaycan musiqi tarixi II cild Bakı: "Elm" -2017

2.Azərbaycan musiqi tarixi IV cild Bakı: "Elm" -2019

3.Cavid Ə. "9 variasiya" ( Ön söz Rəşid Şəfəq) Bakı: "İşıq"-1991

4.Qasımova S."Azərbaycan muysiqi ədəbiyyatı" Bakı: "Adiloğlu"-2009

**Rus dilində**

5.Сеидов Т. "Азербайджанская советская фортепианная музыка (1930-1970)" Баку: "Язычы"-1980

***Naxçıvan Dövlət Universiteti***
***Magistr***

**Shahana Aliyeva***

## THE FIRST EXAMPLES OF THE PIANO GENRE IN AZERBAIJAN NATIONAL MUSIC

The first decades of the 20th century were a period when new directions were formed in the development of the piano playing art in Azerbaijan. In these years, the need to write works in the piano music genre was set before composers as a creative problem. Representatives of the first composition school, confidently moving forward along the path shown by U. Hajibeyli, achieved the solution of this creative problem in a short time with the colorful works they wrote in the piano music genre. The presented article pays special attention to this process and discusses the importance of the creative achievements of our composers.

The formation of a body of works in the piano music genre was one of the important problems that concerned U. Hajibeyli, and the great composer was the first composer to act in this direction by preparing piano arrangements of folk music samples. A. Zeynalli, on the other hand, has earned the title of the first composer to write a work for this instrument in the national musical culture. The article emphasizes A. Zeynalli's searches in the field of piano music, which were evaluated as a unique creative process at that time, and the results of these searches as important achievements that determined the development prospects of the genre. The works he wrote in the piano music genre speak of the perfect unity of classical form, genre features and national music elements. Attention is drawn to the importance of the program titles of the works in revealing the ideological content.

A. Zeynalli's achievements in the piano music genre also served as a stimulus for other composers. G. Garayev, A. Javid, F. Amirov, E. Nazirova provided genre diversity with their first works written for the piano. The article discusses the first works written by these composers in that genre, and draws attention to their genre and form features. Along with the national performing art of these works, the perspective of piano music as a genre is discussed, expanding the development opportunities in this field.

**Keywords:** *national, composer, genre, form, piano, music*

**Шахана Алиева***

## ПЕРВЫЕ ПРИМЕРЫ ФОРТЕПИАННОГО ЖАНРА В АЗЕРБАЙДЖАНСКОЙ НАЦИОНАЛЬНОЙ МУЗЫКЕ

Первые десятилетия XX века стали периодом формирования новых направлений в развитии фортепианного искусства в Азербайджане. В эти годы перед композиторами в качестве творческой задачи встала необходимость написания произведений в жанре фортепианной музыки. Представители первой композиторской школы, уверенно продвигаясь по пути, указанному У. Гаджибейли, в короткие сроки нашли решение этой творческой задачи благодаря ярким произведениям, написанным ими в жанре фортепианной музыки. В данной статье особое внимание уделяется этому процессу и обсуждается значение творческих достижений наших композиторов.

Формирование корпуса произведений в жанре фортепианной музыки было одной из важных задач, волновавших У. Гаджибейли, и великий композитор был первым, кто действовал в этом направлении, создавая фортепианные аранжировки образцов народной музыки. А. Зейналли, с другой стороны, заслужил звание первого композитора, написавшего произведение для этого инструмента в национальной музыкальной культуре. В статье подчеркиваются поиски А. Зейналли в области фортепианной музыки, которые в то время оценивались как уникальный творческий процесс, и результаты этих поисков как важные достижения, определившие перспективы развития жанра. Написанные им произведения в жанре фортепианной музыки свидетельствуют о совершенном единстве классической формы, жанровых особенностей и элементов национальной музыки. Обращается внимание на важность программных названий произведений в раскрытии идеологического содержания.

Достижения А. Зейналли в жанре фортепианной музыки также послужили стимулом для других композиторов. Г. Гараев, А. Джавид, Ф. Амиров, Е. Назирова внесли жанровое

разнообразие своими первыми произведениями, написанными для фортепиано. В статье рассматриваются первые произведения этих композиторов в этом жанре и обращается внимание на их жанровые и формальные особенности. Наряду с национальным исполнительским искусством этих произведений, рассматривается перспектива фортепианной музыки как жанра, расширяя возможности развития в этой области.

**Ключевые слова:** *национальный, композитор, жанр, форма, фортепиано, музыка*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 21.04.2025**
**Son daxilolma tarixi:10.05.2025**